**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

"Təsdiq edirəm"
Tədris məsələləri üzrə prorektor v.i.e:
______________dos. Zaur Məmmədov
"___"______________2026-cı il

# Fənn sillabusu

(işçi tədris proqramı)

**İxtisasın şifri və adı:** 6004006-Marketinq A,B, 6004007-Menecment
**Fakültə**: "İqtisadiyyat və idarəetmə"
**Kafedra:** "İqtisadiyyat və innovativ idarəetmə"

**I. Fənn haqqında məlumat**:

**Fənnin adı:** "Makroiqtisadiyyat" (İşçi proqramı kafedranın 13 fevral 2026-cı il 06 saylı protokolu ilə təsdiq edilmişdir.)
**Kodu:** İPF-B03
**Tədris ili:** II (2025/2026)
**Semestr:** IV (yaz)
**Tədris yükü:** Cəmi: 300 saat. Auditoriya saatı - 90 (45 saat mühazirə, 45 saat seminar)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 10 kredit

**II. Müəllim haqqında məlumat:**

**Soyadı, adı, ata adı, elmi dərəcəsi və elmi adı:**

1. *Şahanə Babazadə Əlibayram qızı, baş müəllim*
2. *Lalə Şahbazova Əbdülrəhim qızı, baş müəllim*
3. *müəllim Leyla Məmmədli Şahin qızı*

**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Füzuli küçəsi 170-A, LDU-nun 1 saylı tədris binası
**Məsləhət günləri və saatı:**
I gün: saat $14^{00}$-$16^{00}$
III-V günlər: saat 12:00-13:00.
II və V günlər: saat $10^{00}$-$12^{00}$
**E-mail ünvanı:**
*shahanababazade@gmail.com*
*lale.shahbazovaa@gmail.com,*
*mammadlyleyla@gmail.com*

**III. Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

**Əsas**

- Deyvid Romer. "Ali makroiqtisadiyyat". Dərslik. Bakı, 2023
- Olivier Blanşard. "Makroiqtisadiyyat". Dərslik. Bakı, 2021
- N.Q.Menkyu. "Ekonomiksin əsasları". Dərslik. Bakı, 2019
- Paul Crugman & Robin Wells "Makro Ekonomi" Palme yayınları. 2015
- Rudiqer Dornbuş, Stenli Fişer, Riçard Stars. "Makroiqtisadiyyat". Bakı, 2012
- N.Q.Menkyu. "Ekonomiksin prinsipləri". Dərslik. Bakı, 2009

-"İqtisadi nəzəriyyə: Makroiqtisadiyyat 1,2". Q.V.Plexanov adına Rusiya İqtisad Akademiyası. Dərslik. Bakı, 2009

**Əlavə**

- A.V.Sidoroviç və b. "İqtisadi nəzəriyyə kursu". Dərslik. M.V.Lomonosov adına Moskva Dövlət Universiteti. Dərslik. Bakı, 2012

- M.X.Meybullayev ."Makroiqtisadiyyata giriş". Dərslik, Bakı, 2011

**IV. Prerekvizit fənlər:** Fənnin tədrisi üçün ilkin olaraq "İqtisadiyyata giriş" və "Mikroiqtisadiyyat" fənlərinin tədrisi zəruridir.

**V. Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni zamanda başqa fənnin tədrisinə zərurət yoxdur.

**VI. Fənnin təsviri və məqsədi:**

Fənn makroiqtisadiyyatın əsas prinsiplərini əhatə etməklə, milli gəlirin ölçülməsi, yaşayış minimumunun hesablanması, iqtisadi artım, maliyyə sistemi, məşğulluq və işsizlik, monetar sistem və inflyasiya, açıq iqtisadiyyat, məcmu tələbə və təklif, makroiqtsiadi siyasət kimi mövzuları özündə birləşdirir. Fənnin məqsədi tələbələrdə makro iqtisadiyyatın təməl biliklərini formalaşdırmaqdır. Bu kursda makroiqtisadi göstəricilərdən başlayaraq real iqtisadiyyat, pul və qiymətlər, makroiqtisadi siyasət və açıq iqtisadiyyatın makroiqtisadi təhlilinə qədər bir çox mövzular üzrə təməl biliklər verilməsi nəzərdə tutulmuşdur.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir.

Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:

- 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam aça bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;

- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - cavab yoxdur.

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın) miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.

Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| Bal aralığı (göstərilən ballar daxil olmaqla) | Hərflə işarəsi | Sözlə yazılışı |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX. Davranış qaydalarının pozulması:**

Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X. Təqvim mövzu planı:**

Mühazirə: 45 saat; Seminar: 45 saat; **Cəmi: 90 saat.**

| № | Tədris olunan mövzuların məzmunu | Saat | | Tarix |
|---|---|---|---|---|
| | | Mühazirə | Seminar | |
| 1. | **Mövzu №1. Makroiqtisadiyyata giriş**<br>***Plan:***<br>1. Makroiqtisadiyyatın tədqiqat obyekti<br>2. Makroiqtisadiyyatın metodologiyası<br>**Mənbə:** [1-9] | 2 | 2 | |
| 2. | **Mövzu №2. İqtisadi fəaliyyətin nəticələrinin ölçülməsi. Milli hesablar sistemi**<br>***Plan:***<br>1. Milli hesablar sistemi və onun strukturu<br>2. Ümumi Daxili Məhsul (ÜDM) və Ümumi Milli Məhsulun (ÜMM) hesablanması<br>3. İctimai məhsulun ölçülməsi üçün istifadə edilən digər makroiqtisadi göstəricilər və onların hesablanması<br>**Mənbə:** [1-9] | 4 | 4 | |

| | | | | |
|---|---|---|---|---|
| 3. | **Mövzu №3. Milli hesablar sistemi ilə bağlı əlavə anlayışlar**<br>*Plan:*<br>1. Makroiqtisadi göstəricilərin dəqiqliyi problemi<br>2. Real və nominal ÜDM<br>3. İqtisadi artım və iqtisadi inkişaf<br>4. İqtisadi artımın əsas göstəriciləri<br>**Mənbə:** [1-9] | 2 | 2 | |
| 4. | **Mövzu №4. Makroiqtisadi qeyri-sabitlik və inflyasiya**<br>*Plan:*<br>1. İnflyasiya və onun növləri<br>2. İnflyasiyanın şərtləri və səbəbləri<br>3. İnflyasiyanın ölçülməsi. Əsas qiymət indeksləri və ÜDM deflyatoru<br>4. İnflyasiyanın sosial-iqtisadi nəticələri. Antiinflyasiya siyasəti<br>**Mənbə:** [1-9] | 4 | 4 | |
| 5. | **Mövzu №5. Makroiqtisadi qeyri-sabitlik və işsizlik**<br>*Plan:*<br>1. Məşğulluq anlayışı və növləri<br>2. İşsizliyin növləri və səbəbləri<br>3. İşsizliyin göstəriciləri. Təbii işsizlik səviyyəsi<br>4. Ouken qanunu. ÜDM və işsizlik arasındakı əlaqə<br>5. İşsizlik və inflyasiya arasındakı əlaqə. Filips əyrisi<br>6. İşsizliyin sosial-iqtisadi nəticələri. Məşğulluq siyasəti<br>**Mənbə:** [1-9] | 4 | 4 | |
| 6. | **Mövzu №6. Məşğulluq və milli gəlir arasındakı əlaqə. Klassik və keynsçi tarazlıq nəzəriyyəsi**<br>*Plan:*<br>1. Klassik iqtisadi yanaşma: faiz dərəcəsi, əmək haqqı və qiymət arasındakı əlaqə<br>2. Keynsçi iqtisadi yanaşmalar<br>**Mənbə:** [1-9] | 4 | 4 | |
| 7. | **Mövzu №7. İstehlak, yığım və investisiyalar**<br>*Plan:*<br>1. İstehlak və istehlak funksiyası<br>2. Yığım və yığım funksiyası<br>3. İnvestisiyalar, onların növləri və funksiyaları<br>**Mənbə:** [1-9] | 2 | 2 | |
| 8. | **Mövzu №8. Dövlətin büdcə - vergi (fiskal) siyasəti**<br>*Plan:*<br>1. Maliyyə sistemi və dövlət maliyyəsi<br>2. Dövlət büdcəsi və onun quruluşu<br>3. Fiskal siyasətin məqsədləri və əsas alətləri | 4 | 4 | |

| | | | | |
|---|---|---|---|---|
| | 4. Büdcə kəsiri, səbəbləri və aradan qaldırılma üsulları<br>5. Dövlət borcu və onun idarə olunması<br>6. Multiplikator və akselerator mexanizmi<br>**Mənbə:** [1-9] | | | |
| 9. | **Mövzu №9. Açıq iqtisadiyyat. Xarici iqtisadi əlaqələr və milli gəlir**<br>***Plan:***<br>1. Açıq iqtisadiyyatın mahiyyəti və onun açıqlılığının meyarları<br>2. İstehsal amillərinin beynəlxalq hərəkətinin makroiqtisadi təsirləri<br>3. Tədiyə balansı və onun quruluşu<br>4. Xarici ticarət və milli gəlir arasındakı əlaqə<br>5. Valyuta bazarı və valyuta məzənnəsi<br>6. Valyuta siyasəti və valyuta rejimi<br>**Mənbə:** [1-9] | 4 | 4 | |
| 10. | **Mövzu №10. Pul və pul təklifi**<br>***Plan:***<br>1. Pul, onun funksiyaları və pul kütləsi<br>2. Pul aqreqatları və likvidlik<br>3. Pul multiplikatoru<br>4. Pul təklifi ilə bağlı yanaşmalar<br>**Mənbə:** [1-9] | 2 | 2 | |
| 11. | **Mövzu №11. Pul tələbi**<br>***Plan:***<br>1. Pul tələbi və ona təsir edən amillər<br>2. Pulun miqdar nəzəriyyəsi. Fişer və Kembric tənliyi<br>3. Likvidlik tələsi<br>**Mənbə:** [1-9] | 2 | 2 | |
| 12. | **Mövzu №12. Dövlətin pul-kredit (monetar) siyasəti**<br>***Plan:***<br>1. Müasir bank sistemi: Mərkəzi Bank və kommersiya bankları<br>2. Mərkəzi Bankın pul-kredit (monetar) siyasəti, onun məqsədləri və alətləri<br>**Mənbə:** [1-9] | 2 | 2 | |
| 13. | **Mövzu №13. Milli gəlirin real və monetar tarazlığı: IS-LM modeli**<br>***Plan:***<br>1. Əmtəə bazarında tarazlıq və IS əyrisi<br>2. Pul bazarında tarazlıq və LM əyrisi<br>3. Pul siyasətinin effektivliyi<br>4. Maliyyə siyasətinin effektivliyi<br>5. IS-LM əyrisinin bölgələri<br>**Mənbə:** [1-9] | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| 14. | **Mövzu №14. Toplam tələb və toplam təklif**<br>***Plan:***<br>1. Toplam tələb əyrisinin sürüşməsi və meyilliliyinin dəyişməsi<br>2. Toplam təklif əyrisinin sürüşməsi və meyilliliyinin dəyişməsi<br>3. Ümumi makroiqtisadi tarazlıq<br>**Mənbə:** [1-9] | 4 | 4 | |
| 15. | **Mövzu №15. Makroiqtisadi qeyri-sabitlik və iqtisadi tsikllər**<br>***Plan:***<br>1. İqtisadi tsikl və onun növləri<br>2. İqtisadi böhranın yaranma səbəbləri<br>3. Dövlətin antitsikl tənzimləmələri<br>**Mənbə:** [1-9] | 3 | 3 | |
| | **Cəmi:** | **45 saat** | **45 saat** | |

**XI. Fənn üzrə tələblər:**

Fənnin tədrisinin sonunda tələbələr əmtəə və xidmət buraxılışı miqdarının artımı (Milli Gəlir), işsizlik (məşğulluq), inflyasiya, istehlak və investisiya, pul-kredit sistemi, büdcə-vergi sistemi, xarici iqtisadi əlaqələr, iqtisadi sabitlik və böhran, iqtisadi siyasət və s. barədə nəzəri və praktiki bilik və bacarıqlara yiyələnməlidir.

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

-mühazirə, seminar, praktiki tapşırıqlar

-təqdimat və müzakirə

-debat

-müstəqil iş/araşdırma

**XIII. Fənn üzrə təlim nəticələri:**

- Makroiqtisadi sabitliyi, dayanıqlı iqtisadi artımı, ehtiyatların tam istifadə olunmasını, infilyasiya və işsizlik səviyəsinin minimumlaşdırılmasını öyrənir;
- Makroiqtisadi tarazlığın məcmu tələb və məcmu təklif modeli;
- Makroiqtisadi tarazlığın Keynsin gəlirlər və xərclər modeli;
- Vergi-büdcə və pul-kredit siyasəti;
- Əmtəə və pul bazarlarında makroiqtisadi tarazlıq;
- Açıq və qapalı iqtsiadiyyatın makroiqtisadi təhlili;

**XIV. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

____________________________________________________________

____________________________________________________________

**XV. Kollokvium sualları:**

**I. Kollokvium sualları:**

1. Makroiqtisadiyyatın tədqiqat obyekti
2. Makroiqtisadiyyatın metodologiyası

3. Ümumi Daxili Məhsul (ÜDM) və Ümumi Milli Məhsulun (ÜMM) hesablanması
4. İctimai məhsulun ölçülməsi üçün istifadə edilən digər makroiqtisadi göstəricilər və onların hesablanması
5. Makroiqtisadi göstəricilərin dəqiqliyi problemi
6. Real və nominal ÜDM
7. İqtisadi artım və iqtisadi inkişaf
8. İnflyasiya və onun növləri
9. İnflyasiyanın şərtləri və səbəbləri
10. İnflyasiyanın ölçülməsi. Əsas qiymət indeksləri və ÜDM deflyatoru
11. İnflyasiyanın sosial-iqtisadi nəticələri. Antiinflyasiya siyasəti
12. İşsizliyin növləri və səbəbləri
13. İşsizliyin göstəriciləri. Təbii işsizlik səviyyəsi
14. Ouken qanunu. ÜDM və işsizlik arasındakı əlaqə
15. İşsizlik və inflyasiya arasındakı əlaqə. Filips əyrisi

**II. Kollokvium sualları:**

1. İşsizliyin sosial-iqtisadi nəticələri. Məşğulluq siyasəti
2. Klassik iqtisadi yanaşma: faiz dərəcəsi, əmək haqqı və qiymət arasındakı əlaqə
3. Keynsçi iqtisadi yanaşmalar
4. İstehlak və istehlak funksiyası
5. Yığım və yığım funksiyası
6. İnvestisiyalar, onların növləri və funksiyaları
7. Dövlət büdcəsi və onun quruluşu
8. Fiskal siyasətin məqsədləri və əsas alətləri
9. Büdcə kəsiri, səbəbləri və aradan qaldırılma üsulları
10. Dövlət borcu və onun idarə olunması
11. Açıq iqtisadiyyatın mahiyyəti və onun açıqlılığının meyarları
12. İstehsal amillərinin beynəlxalq hərəkətinin makroiqtisadi təsirləri
13. Tədiyə balansı və onun quruluşu
14. Xarici ticarət və milli gəlir arasındakı əlaqə
15. Valyuta siyasəti və valyuta rejimi

**XVI. İmtahan sualları:**

1. Makroiqtisadiyyatın tədqiqat obyekti
2. Makroiqtisadiyyatın metodologiyası
3. Ümumi Daxili Məhsul (ÜDM) və Ümumi Milli Məhsulun (ÜMM) hesablanması
4. İctimai məhsulun ölçülməsi üçün istifadə edilən digər makroiqtisadi göstəricilər və onların hesablanması
5. Makroiqtisadi göstəricilərin dəqiqliyi problemi
6. Real və nominal ÜDM
7. İqtisadi artım və iqtisadi inkişaf
8. İnflyasiya və onun növləri
9. İnflyasiyanın şərtləri və səbəbləri
10. İnflyasiyanın ölçülməsi. Əsas qiymət indeksləri və ÜDM deflyatoru
11. İnflyasiyanın sosial-iqtisadi nəticələri. Antiinflyasiya siyasəti
12. İşsizliyin növləri və səbəbləri

13. İşsizliyin göstəriciləri. Təbii işsizlik səviyyəsi
14. Ouken qanunu. ÜDM və işsizlik arasındakı əlaqə
15. İşsizlik və inflyasiya arasındakı əlaqə. Filips əyrisi
16. İşsizliyin sosial-iqtisadi nəticələri. Məşğulluq siyasəti
17. Klassik iqtisadi yanaşma: faiz dərəcəsi, əmək haqqı və qiymət arasındakı əlaqə
18. Keynsçi iqtisadi yanaşmalar
19. İstehlak və istehlak funksiyası
20. Yığım və yığım funksiyası
21. İnvestisiyalar, onların növləri və funksiyaları
22. Dövlət büdcəsi və onun quruluşu
23. Fiskal siyasətin məqsədləri və əsas alətləri
24. Büdcə kəsiri, səbəbləri və aradan qaldırılma üsulları
25. Dövlət borcu və onun idarə olunması
26. Multiplikator və akselerator mexanizmi
27. Açıq iqtisadiyyatın mahiyyəti və onun açıqlılığının meyarları
28. İstehsal amillərinin beynəlxalq hərəkətinin makroiqtisadi təsirləri
29. Tədiyə balansı və onun quruluşu
30. Xarici ticarət və milli gəlir arasındakı əlaqə
31. Valyuta siyasəti və valyuta rejimi
32. Pul aqreqatları və likvidlik
33. Pul multiplikatoru
34. Pul tələbi və ona təsir edən amillər
35. Pulun miqdar nəzəriyyəsi. Fişer və Kembric tənliyi
36. Müasir bank sistemi: Mərkəzi Bank və kommersiya bankları
37. Mərkəzi Bankın pul-kredit (monetar) siyasəti, onun məqsədləri və alətləri
38. Əmtəə bazarında tarazlıq və IS əyrisi
39. Toplam tələb əyrisinin sürüşməsi və meylliliyinin dəyişməsi
40. Ümumi makroiqtisadi tarazlıq

Hər bir bilet 5 sualdan ibarətdir. Bilet üzrə 4 (dörd) nəzəri və 1 (bir) praktik (tədris olunan mövzulara aid) sual nəzərdə tutulur.

"Makroiqtisadiyyat" fənninin sillabusu 6004006-Marketinq A,B, 6004007-Menecment ixtisasları üzrə təhsil proqramı, tədris planı və işçi proqramı əsasında tərtib edilmişdir.

Sillabus "İqtisadiyyat və innovativ idarəetmə" kafedrasında müzakirə edilərək təsdiq edilmişdir **(13.02.2026-cı il, protokol № 6).**

**Mühazirə üzrə fənn müəllimi :** **b/m .Ş.Ə.Babazadə**

**Seminar üzrə fənn müəllimi:** **b/m. L.Ə. Şahbazova**

**Seminar üzrə fənn müəllimi:** **m.L.Ş.Məmmədli**

**Kafedra müdiri v.i.e:** **dos. G.T.Əliyeva**